Kazus 1

Faktlar – BMT-nin Təhlükəsizlik Şurasının bir neçə Qətnaməsinə əsasən İsveçrədə Federal Taliban Fərmanı qəbul edildi.Misir vətəndaşı olan ərizəçinin adı BMT Təhlükəsizlik Şurasının Sanksiyalar Komitəsinin Taliban və əl-Qaeda ilə əlaqəli olmaqda şübhəli bilinən şəxslərin siyahısına (“siyahı”) salınmış olduğundan, Həmin Fərman ərizəçinin İsveçrəyə daxil olmasına və ya oradan keçməsinə imkan vermirdi.Ərizəçi ərazisi təxminən 1.6 kvadrat kilometr olan, İsveçrənin Ticino Kantonu ilə əhatə olunan və İtaliyanın qalan hissəsi ilə göl vasitəsi ilə ayrılan İtalyan anklavı Campione d’Italia-da yaşayırdı.Ərizəçi iddia etdi ki, məhdudiyyət onun anklavı tərk etməsini və bununla da dostlarını və ailəsini görməsini çətinləşdirmiş və sağlamlıq problemləri ilə bağlı lazımi tibbi müalicə ala bilmədiyindən ona əziyyət vermişdir.Hətta İsveçrə müstəntiqləri ərizəçiyə qarşı olan ittihamları əsassız hesab etdikdən sonra da, ərizəçinin adının Fərmandan çıxarılması çətin idi.

Suallar:

1. **8-ci maddənin pozuntusu varmı, varsa nəzərdə tutulan hansı hüquq pozulub?**
2. **Diskresion səlahiyyətlərin hüdudları aşılıbmı?**
3. **Dövlətin ərizəçiyə tətbiq etdiyi prosedurlar demokratik cəmiyyət üçün zəruridirmi?**

Kazus 2

Faktlar - İxtisasca Vəkil olan ərizəçinin ofisində axtarış aparılmışdı. Ərizəçi ərizəsində iddia edirdi ki, onun 8-ci maddə də nəzərdə tutulan şəxsi həyata hörmət hüququna və yazışma sirrinə hörmət huququ dövlət orqanlarının ofisdə axtarış aparması ilə ifadə olunan hərəkətləri nəticəsində pozulub. Dövlət isə şikayətə etiraz edərək bildirdi ki, 8-ci maddə "Vəkil kontorunda" axtarışdan müdafiəni təmin etmir, belə ki, konvensiya bir tərəfdən şəxsi həyat və mənzil arasında, digər tərəfdən isə işguzar həyat və xidməti otaqlar arasında dəqiq sərhəd müəyyən edir. Belə olan təqdirdə isə dövlət öz hərəkəti ilə ərizəçinin 8-ci maddə də hüquqlarını pozmamışdır.

Suallar:

1. **8-ci maddənin pozuntusu varmı, varsa nəzərdə tutulan hansı hüquq pozulub?**

Kazus 3

Faktlar – Səkkiz ərizəçi əvvəllər keçmiş Yuqoslaviyanın və onun tərkibindəki respublikalardan biri olan Sloveniyanın vətəndaşı idilər.Onların Sloveniyada daimi yaşayış yeri vardı, amma Sloveniya müstəqillik qazandıqdan sonra onların bir qismi Sloveniya vətəndaşlığı almaq üçün müraciət etməmiş, digər qisminin müraciətləri isə rədd edilmişdi.26 fevral 1992-ci ildə yenicə qüvvəyə minmiş "Əcnəbilər haqqında" Qanuna uyğun olaraq, onların adları daimi sakinlərin qeydiyyatı kitabından çıxarıldı və onlar ölkədə yaşayış icazəsi olmayan əcnəbilərə çevrildilər.25.000 digər şəxs də eyni vəziyyətdə idi.Ərizəçilərin sözlərinə görə, onların heç birinə

qeydiyyat kitabından çıxarılmalarına dair qərar barədə məlumat verilməmişdi və onlar əcnəbiyə çevrildiklərini yalnız sonrakı mərhələdə – şəxsiyyət sənədlərini təzələməyə cəhd edərkən öyrənmişdilər. Onların adlarının qeydiyyat kitabından çıxarılması ciddi və uzunmüddətli mənfi nəticələrə səbəb olmuşdu: ərizəçilərin bəziləri vətəndaşlığı olmayan şəxsə çevrilmiş, digərləri isə mənzillərindən çıxarılmış, işləmək və ya başqa yerə getmək imkanından və bütün şəxsi əmlaklarından məhrum olmuşdular və illərlə sığınacaqlarda və parklarda yaşayırdılar. Hətta digərləri tutulub və Sloveniyadan deportasiya olunmuşdular. 1999-cu ildə Konstitusiya Məhkəməsi "Əcnəbilər haqqında" Qanunun müəyyən müddəalarını, habelə qeydiyyat kitabından avtomatik "çıxarılmanı" konstitusiyaya zidd elan etdi, ona görə ki, etiraz edilən qanunvericilik normalarına əsasən, keçmiş Yuqoslaviya vətəndaşları Sloveniya müstəqillik qazanana qədər Sloveniyada yaşamış digər əcnəbilərə nisbətən daha əlverişsiz vəziyyətdə idilər, belə ki, onların hüquqi statusunun Sloveniyada yaşayan əcnəbilərin hüquqi statusuna çevrilməsini tənzimləyən hüquqi sənəd mövcud deyildi. Konstitusiya Məhkəməsinin qərarından sonra qeydiyyat kitabından "çıxarılanların" hüquqi vəziyyətini tənzimləmək üçün yeni qanun qəbul edildi. 2003-cü il tarixli qərarında Konstitusiya Məhkəməsi yeni qanunun müəyyən müddəalarını konstitusiyaya zidd elan etdi, xüsusən ona görə ki, həmin müddəalar qeydiyyat kitabından "çıxarılanların" daimi yaşayış yerinin retrospektiv qaydada bərpasını nəzərdə tutmurdu və ya deportasiya olunanların hüquqi vəziyyətini tənzimləmirdi. Ərizəçilər 8-ci maddənin, o cümlədən 8-ci maddə ilə birlikdə götürülməklə 14-cü maddənin pozuntusunu iddia edirdilər.

Suallar:

1. **8-ci maddənin təsir dairəsinə düşürmü, düşürsə pozuntusu varmı, varsa nəzərdə tutulan hansı hüquq pozulub?**
2. **Diskresion səlahiyyətlərin hüdudları aşılıbmı?**
3. **14-cü madənin(8-ci maddə ilə birgə) pozuntusu baş veribmi?**

Kazus4

Faktlar – Rusiya qanunvericiliyinə əsasən, mülki şəxs olan atalar və analar körpə uşaqlarına qulluq etmək üçün üç illik valideynlik məzuniyyəti hüququna və həmin dövrdə aylıq müavinət almaq hüququna malikdilər. Bu hüquq aydın şəkildə hərbçi qadınlara da şamil olunur, amma hərbçi kişilər barəsində belə norma nəzərdə tutulmayib. Silahlı qüvvələrdə radioelektron kəşfiyyat qrupunun operatoru və boşanmış şəxs olan ərizəçi nikahdan doğulmuş üç uşağını böyütməkdən ötrü üç illik valideynlik məzuniyyəti almaq üçün müraciət etdi, lakin müraciəti rədd edilərək, daxili qanunvericilikdə bu tələb üçün heç bir əsasın olmaması bildirilmişdir.Sonradan ona rəisləri tərəfindən təxminən iki illik valideynlik məzuniyyəti verildi və şəxsi durumunun çətinliyi ilə əlaqədar olaraq maliyyə yardımı göstərildi. Bununla belə, o, Konstitusiya Məhkəməsinə şikayət ərizəsi verdi və ərizədə bildirdi ki, qanunvericilik Konstitusiyanın bərabər hüquqlara verdiyi təminata uyğun deyil. Konstitusiya Məhkəməsi bu şikayəti rədd edərək bildirdi ki, hərbi qulluqçuların valideynlik məzuniyyəti götürməsinə qoyulan qadağa hərbçilərin xüsusi hüquqi statusuna əsaslanır və çoxlu sayda hərbçilərin vəzifə başında olmamasının qarısını almaq zərurətindən irəli gəlir. O, qeyd etdi ki, hərbi qulluqçuların öz üzərlərinə hərbçi statusu ilə bağlı öhdəlikləri könüllü götürdükləri hesab edilir və onlar uşaqlarına şəxsən qulluq etməyi qərara aldıqda hərbi xidmətlərinə vaxtından əvvəl xitam verilməsi hüququna malikdirlər. Hərbi qulluqçulara valideynlik məzuniyyəti götürmək hüququ müstəsna qaydada verilir və bu zaman hərbi qulluqda olan qadınların sayının az olması və

qadınların analıqla bağlı xüsusi sosial rolu nəzərə alınır.Ərizəçi 8-ci maddə ilə birlikdə götürülməklə 14-cü maddənin pozuntusunu iddia edirdi.

Suallar:

1. **8-ci maddənin təsir dairəsinə düşürmü, düşürsə pozuntusu varmı, varsa nəzərdə tutulan hansı hüquq pozulub?**
2. **Diskresion səlahiyyətlərin hüdudları aşılıbmı?**
3. **14-cü madənin(8-ci maddə ilə birgə) pozuntusu baş veribmi?**

Kazus 5

Faktlar – 2000-ci ildə Mədəniyyət Nazirliyi professor köməkçisi tərəfindən yazılmış "Türkiyə qaraçıları" adlı kitab nəşr etdi.Ərizəçi etirazını bildirərək kitabda qaraçıları alçaldan və təhqir edən sözlərin və ifadələrin olduğunu iddia etdi və mənəvi ziyanın kompensasiyası üçün Nazirliyə və kitabın müəllifinə qarşı iddia qaldırdı.Birinci instansiya məhkəməsi iddianı rədd edərək müəyyən etdi ki, kitab akademik tədqiqatın nəticəsidir, elmi məlumatlara əsaslanır və orada Türkiyədəki qaraçı icmasının sosial strukturları araşdırılıb, etiraz edilən ifadələr isə ərizəçini təhqir etməyib.Bu qərar apellyasiya məhkəməsi tərəfindən qüvvədə saxlanıldı.

Bu arada ərizəçi Mədəniyyət Nazirliyi tərəfindən "Şagirdlər üçün türk lüğəti" və "Türk lüğəti" adlı iki lüğətin nəşr edilməsinə maliyyə yardımı göstərmiş qeyri-hökumət assosiasiyasına qarşı da mülki iddia qaldırdı, ərizəçinin iddiasına görə orada qaraçıları təhqir edən və onlara qarşı ayrı-seçkiliyə yol verən müəyyən sözlər vardı. Daxili məhkəmələr bu iddianı da rədd edərək müəyyən etdilər ki, lüğətdəki anlayış və ifadələr tarixi və sosioloji reallığa əsaslanıb və orada etnik qrupu alçaltmaq və ya təhqir etmək niyyəti daşıyan heç nə yoxdur.Onlar qeyd etdilər ki, türk dilində həmçinin başqa etnik qruplara aid analoji ifadələrə lüğət və ensiklopediyalarda rast gəlmək olar.

Suallar:

1. **8-ci maddənin təsir dairəsinə düşürmü, düşürsə pozuntusu varmı, varsa nəzərdə tutulan hansı hüquq pozulub?**
2. **Diskresion səlahiyyətlərin hüdudları aşılıbmı?**
3. **14-cü maddənin(8-ci maddə ilə birgə) pozuntusu baş veribmi?**

Hazırladı: Babək Həmidov